***Əziz oxucular, ötən saylarımızda sizlərə 80-ci illər ədəbi nəslinin istedadlı nümayəndələrindən olan, hal-hazırda Rusiyanın Volqoqrad şəhərində yaşayan həmyerlimiz, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair Paşa Talıblı haqqında əhatəli şəkildə məlumat vermişdik.***
***Bu dəfə isə “Art” səhifəsi olaraq Paşa Talıblının yaradıcılığından bir neçə şeiri diqqətinizə çatdırırıq.***

# “Hayana gedirsən yoxa çıxırsan”



***

Mən kiməm- sorsalar dedim:
sözün zatından gəlirəm.
...mərtəbə-mərtəbə qalxdım-
yeddi qatından gəlirəm.

..hər gələn səsə çıxıram,
quru nəfəsə çıxıram.
...mən bir gün misə çıxıram,
bir gün altundan gəlirəm!.

...dərvişəm, şaham, vəliyəm-
mən könüllərə valiyəm.
...göyün üstündən halıyam,
yerin altından gəlirəm.

...ruhum canımnan pəsdədi,
ruhumu candan istədim.
...yada dost dedim, dost dedim!
Dostun yadından gəlirəm.

Paşam söylər nə söyləsin?
Yaxa dartsın can teyləsin...
Haqqın özü haqq eyləsin,
haqqın adından gəlirəm.

***

*(Oğlum, gənc şair Elvin Paşaya)*

Olacaq, yahu, olacaq
daş atan Elvin Paşaya.
Tanrı özü dözüm versin
başacan Elvin Paşaya.

Evdə külfəti var, axı...
Neyləsin bu yetim fağır?
...özü bir Allaha baxır,
beş adam Elvin Paşaya.

Qalmamış harası qaldı,
bir bağır yarası qaldı.
...üzünün qarası qaldı
Paşadan Elvin Paşaya.

***

Həm aşiqəm, həm dərvişəm...-
mən bir gülün butasıyam.
...mən özümün zamanımda
ötələrin ötəsiyəm.

...qaradan, ağdan gəlmişəm,
bir ulu dağdan gəlmişəm.
...mən enib haqdan gəlmişəm,
dönüb haqda itəsiyəm.

Mən həm məndə həm haqdayam...
...qələmdəyəm, varaqdayam.
...mən özümdən qabaqdayam,
mən özümü ötəsiyəm.

Mən bir canam...birimmi var?
...məndə ölüm-dirimmi var?
Mənim ayrı yerimmi var?
Könüllərdə bitəsiyəm.

Mən dünyaya bildim gəldim...
Gəlişim min ildi...gəldim!
...bir gün olur gəldim, gəldim,
bir gün olur gedəsiyəm.

***

*(“Mənə çox doğma insansan” dedin...)*

Yenə əvvəlki salamlar,
əvvəlki hüzur, doğmalıq.
...adamı həsrətdən də çox
olur ki, üzür doğmalıq.

...ağ dəvə düzdə qalan tək
qılıncım qınımı kəsdi.
...doğmalıq kimi sözlərnən
sən axan qanımı kəsdin.

...necədi bir daşın min daş,
min daşın bir daş olmağı?..
...eh, yolunu öyrənirəm
sənə qardaş olmağın!

***

Zaman ötsün, vaxt yerisin,
günü qoymayın ölməyə.
...su verin bitsin göyərsin,
dəni qoymayın ölməyə.

...hər dərdi dərd eyləməyin,
ikini dörd eyləməyin.
...mərdi namərd eyləməyin,
yəni qoymayın ölməyə.

...ya pərdə ya sim olacam-
bir yüngül əsim olacam.
...mən sizə lazım olacam,
məni qoymayın ölməyə.

***

*(Emil Rasimoğlunun “Ömür bir qərib yoldu” misrasına....)*

Eşq ilə görmək üçün
yarı...yola çıxıram.
...yarı canda qalıram,
yarı yola çıxıram.

...hərə bir şəkil, şəkil
dururuq dünya çəkir.
...qaranlıq, çəkil, çəkil,
yarıl...yola çıxıram.

Bu sevdada ah var, ah...
...La-ilaha-illalah!
Quluna yar ol, Allah,
yar ol...yola çıxıram!

***

Gecənin yarısı qəfil durasan,
gördüyün bir yorğun yuxu oyada.
Görsən ki, bir şəklin yuxusu imiş,
görsən ki, dünyadı yağlı boyada.

...görsən ki, dünyanın astar üzüdü,
astarı üzündən baha çıxırsan.
...görsən ki, gedirsən, gedirsən elə,
hayana gedirsən yoxa çıxırsan.

...görsən ki, hər üzü üzə güləndi,
fərziyyə fərz edər fağır üzünü.
...görsən darıxırsan bu vəsfi-halnan,
görsən ki, tənhasan çağır özünü.

***

İlahi, bu baxan kimdi?
balamın canından baxır.
Elə bil gecə yarısı
ağ sübhün danından baxır.

Ölmədi ki, şəhid oldu...
Adı dilimdə vird oldu.
Öz qanına şahid oldu,
indi öz qanından baxır.

...Getdi dönərmi dönməzmi?
...Susdu dinərmi dinməzmi?
...Bir də enərmi enməzmi?
Qılıncı qınından baxır.

...Tilsimə bax, əyana bax,
göy üzündən o yana bax.
Başını qaldır ONA bax,
Allahın yanından baxır.

***

Mən onda şair tək doğulmamışdım...
Onda daş dövrüydü, daşıydı hər şey.
...yaza az qalırdı— o güllü yaza!
Yaxşı yadımdadı, qışıydı hər şey.

...Zati-alilərdi yar yarası da
yaradan yaracan işində idi.
...Mən onda şair tək doğulmamışdım
amma doğulmağın peşində idim.

Şairin nə işi doğulmasa, bax...
Beləydi, özgə cür “qaldı” yoxuydu.
Amma doğulmağa yer gərək idi...
Onda ulduzların altı yoxuydu.

...Onda ulduzların altı yoxuydu!
Anam doğacaqdı sonradan məni.
...Eh, şair anası olmalıydısa,
ulduz doğmalıydı sonra da məni.

***

Gecələr qara güzgüdü,
gözəl nə qaradan özgə?
Ay baxır, ulduzlar baxır—
nə baxır aradan özgə?

...gecənin qaşları çatma,
nə yuxulu gözləri var.
Gecədən keçən sözlərin
öpüləsi izləri var.

...Məni də güllələdilər
bu gecənin ortasında.
Mənəm, gecədi—qalmışıq
bu küçənin ortasında.

...şehləyir səhərə qədər
şairlər—gülə sığanlar.
Boş əlimi sıxanlardı
alnıma güllə sıxanlar...

**Paşa Talıblı**

**Səhifəni hazırladı: Emil Rasimoğlu**